

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 129 (24.016)

*14 iyul 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçekin etimadnaməsini qəbul edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında yüksək səviyyədə səfərlərin, o cümlədən nümayəndə heyətlərinin mütəmadi təmaslarının ikitərəfli münasibətlərin inkişafına töhfəsini qeyd edərək iqtisadi əməkdaşlığın genişləndirilməsi, həmçinin qarşılıqlı ticarətin həcminin artırılması üçün yaxşı potensialın olduğunu bildirib.

Azərbaycan Prezidenti, eyni zamanda sənaye, kənd təsərrüfatı, müasir texnologiyalar sahələrində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu deyib, bildirib ki, Azərbaycandan keçərək Şərqdən Qərbə yükdaşımaların həcminin artmasını nəzərə alaraq bu sahədə də əməkdaşlıq baxımından imkanlar mövcuddur. Prezident İlham Əliyev, həmçinin biznes dairələri arasında əlaqələrin genişlənməsi və qarşılıqlı investisiya qoyuluşu imkanlarının araşdırılmasının da əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı humanitar, elm, təhsil, turizm sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası 2022-ci il iyul ayının 16-da saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2022-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi
3. "Naxçıvan Muxtar Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
4. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 13 iyul 2022-ci il*



## 1969-cu il 14 iyul: Azərbaycanın sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının başlanğıc tarixi

Azərbaycanın XX əsrdəki inkişafının əsası 1969-cu ilin 14 iyulunda qoyulmuşdur. Həmin tarixdə siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev, sözün həqiqi mənasında, böyük bir xalqın həyatında möhtəşəm dəyişikliyə nail olmuş, milli, müstəqil dövlətin qurulması üçün zəruri olan bütün işləri görmüşdür. 1969-cu ilə qədər SSRİ-nin aqrar respublikası kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan bir diyara çevrilmişdi. Ona görə də 1969-cu ilin 14 iyulunda ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizin müstəqillik tarixinin, parlaq və işıqlı yolunun başlanğıcı kimi qiymətləndirilir.

1969-cu ildə ulu öndər Heydər Əliyev ölkəmizə rəhbər seçiləndə Azərbaycan ozamankı SSRİ-nin ən geridə qalmış respublikası idi. İqtisadi potensialına baxmayaraq, mütərəqqi yanaşmalar olmadığından heç bir irəliləyişə nail olmaq mümkün deyildi. Ümummilli lider Heydər Əliyev həmin dövrü belə xarakterizə edirdi: ***"Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".***

Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti və yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan bir neçə il sonra SSRİ-də ən qabaqcıl respublikaya çevrildi. Müasir texnika və texnologiyalarla təchiz olunmuş yeni sənaye müəssisələrinin yaradılması, müasir təsərrüfatçılıq anənələrinin formalaşdırılması və bir sıra köklü islahatlar qısa müddətdə respublikanı aqrar regiondan aqrar-sənaye regionuna çevirdi. Ümumilikdə, ulu öndərin Azərbaycanda hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikamızda 213 yeni iri sənaye müəssisəsi istifadəyə verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Keçmiş ittifaqın 170 aparıcı elm və təhsil ocağına 15 mindən çox azərbaycanlı gənc təhsil almağa göndərilmişdir. Bundan əlavə, 1970-ci ildə mütəxəssislər qeyd edirdilər ki, son 100 ildə 1 milyard ton neft istehsal etmiş, İkinci Dünya müharibəsi illərində SSRİ-nin neftə olan ehtiyacının 75 faizini vermiş Azərbaycanın neftayırma zavodları hələ çar dövründə inşa edildiyinə görə müasir tələblərlə ayaqlaşmır. Buna görə də ulu öndər Heydər Əliyev SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldırmış və Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Eyni zamanda 70-ci illərdə paytaxt Bakı şəhəri də daxil olmaqla Azərbaycanın bir çox bölgələrində elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. Təkcə 1970-1982-ci illərdə Azərbaycandakı sənaye müəssisələrinin sayı əvvəlki illərdə tikilən müəssisələrin sayından qat-qat çox idi.

Xalqımızın ümummilli lideri həmin illərdə Azərbaycanın tarixi və mədəniyyətinə, elm və təhsilinə də böyük qayğı göstərmiş, mühüm addımlar atmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdır. Dahi şəxsiyyətin Azərbaycanda savadlılığın artırılması yolunda gördüyü işlərin nəticəsi idi ki, əgər 1969-cu ildə ölkəmizdə 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Ümummilli liderin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdır. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil almışdır. Onların əksəriyyəti bu gün ölkəmizin inkişafı üçün müxtəlif sahələrdə fəaliyyət göstərirlər.

Dahi və uzaqgörən şəxsiyyətin həmin dövrdə həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də respublikada milli hərbçi kadrların yetişdirilməsi istiqamətində qəbul etdiyi tarixi qərarlar və bunun nəticəsi olaraq Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması idi. O dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyində mövcud olan qabaqcıl ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri idi. Təsadüfi deyil ki, ümummilli liderin həmin dövrlərdə başladığı hərbi quruculuq prosesi müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin hərbçi kadrlarla təminatında böyük rol oynamışdır.

Ulu öndər Heydər Əliyev xalqımızın milli kimliyi olan ana dilimizin inkişafını da diqqətdə saxlamış, bütün SSRİ məkanında rus dilinin hakim və rəsmi dil olduğu zaman böyük cəsarət göstərərək Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Dahi rəhbər yüksək səviyyəli digər yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində çıxışlar edərək böyük hörmət və məhəbbət qazanmışdı. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: *"Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".* Həmin dövrdə belə bir addımın atılması böyük risk, cəsarət və qətiyyət tələb edirdi.

*Ardı 2-ci səhifədə*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“1969-cu il iyulun 14-də hakimiyyətə gələn 46 yaşlı dövlət təhlükəsizlik orqanı generalı və güclü siyasi iradə sahibi olan möhtərəm Heydər Əliyev Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumalı, heç bir əsas olmadan tarixi torpaqlarımızın Ermənistana güzəştə gedilməsinin qarşısını almalı, iqtisadiyyatı dirçəltməli, sosial ədalətsizliyi aradan qaldırmalı, bir sözlə, xalqı yaşatmalı idi. Bununla yanaşı, təhsil, mədəniyyət və sosial sahədə də öz həllini gözləyən ciddi problemlər yığılıb qalmışdı. Ulu öndərimizin Azərbaycan naminə fəaliyyətinin bu mərhələsi qeyd olunan problemlərin qısa müddətdə aradan qaldırılmasına, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşının, torpağa sahiblik hissinin bərpasına, bununla birlikdə Azərbaycanın özünə qayıdışına hesablanmışdı”.***

XX əsrin 70-ci illərinə qədər Naxçıvan Muxtar Respublikasında da çox ağır sosial-iqtisadi vəziyyət hökm sürürdü. Hətta Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə qalırdı və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ulu öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli Qərarının mühüm rolu olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilmiş, aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı üç dəfə artmış, Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. Ulu öndərin o vaxt Naxçıvanın elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün atdığı addımlar muxtar respublikanın gələcək taleyində mühüm rol oynamışdır. 1990-cı illərin əvvəllərində Naxçıvan Ermənistan tərəfindən blokadaya alınarkən muxtar respublika əhalisi məhz həmin enerji mənbələri hesabına qarşılaşdıqları çətinliklərə sinə gərə bilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk... Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır”.***

Ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmizin vətəndaş müharibəsinə, hərc-mərcliyə, xaos və anarxiyaya sürükləndiyi zamanda ümummilli liderimiz növbəti dəfə canı qədər sevdiyi Azərbaycanı xilas etmiş, onu əsl müstəqilliyinə qovuşdurmuşdur. 1990-1993-cü illərdə dahi şəxsiyyətin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə səbəb olmaqla yanaşı, milli dövlətçiliyimizin qorunması və inkişaf etdirilməsi istiqamətində də mühüm tədbirlərin həyata keçirilməsi ilə tarixə yazılmışdır. Ümummilli liderin uzaqgörən siyasətinin nəticəsi olaraq 70 ildən sonra üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmış, muxtar respublikanın adından “Sovet Sosialist” sözləri çıxarılmış, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməmiş, digər tərəfdən isə qonşu ölkələrlə münasibətlərə üstünlük verilmiş, xarici iqtisadi əlaqələr yaradılmışdır. 1993-cü ildə ölkəmiz milli dövlətçiliyimizin ikinci dəfə məhvolma təhlükəsi ilə üzləşəndə ulu öndər Heydər Əliyev yenidən xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıtmış və bu qayıdış xalqımızın ən yeni tarixinə Vətənimizin xilası kimi yazılmışdır. Eyni zamanda bu qayıdış ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsinə, ölkəmizin təlatümlər burulğanından xilas olmasına, müstəqilliyimizin qorunub saxlanmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, möhkəm ictimai-siyasi sabitliyin yaradılmasına, Azərbaycanın iqtisadi inkişafına böyük təkan verən “Əsrin müqaviləsi”nin imzalanmasına, yerli və xarici investisiyaların cəlb edilməsinə, müasir istehsal müəssisələrinin qurulmasına, infrastrukturun yenilənməsinə şərait yaratmışdır. Dahi rəhbərin fəaliyyəti təkcə iqtisadi sahələrlə məhdudlaşmamış, milli dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində də böyük addımlar atılmış, tarixdə ilk dəfə olaraq dünya azərbaycanlılarının həmrəylik konsepsiyası hazırlanaraq uğurla həyata keçirilmişdir. Bir sözlə, 1969-cu ildən başlanan quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirilməsi müstəqil Azərbaycanın daha da güclənməsinə səbəb olmuşdur. Bu güc Heydər Əliyev ideyalarının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ölkəmizi daha da inkişaf etdirməyə, dünyada böyük nüfuz qazanmasına imkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir”.***

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanır. Bütün sahələr üzrə Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan 2020-ci ildə erməni işğalı altında olan torpaqlarımızı 44 gün ərzində azad etdi, ərazi bütövlüyümüz təmin olundu. Ölkə başçısının səsləndirdiyi ***“Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs “Qurani-Kərim”ə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi”*** sözləri həm də ulu öndərin ***“Biz o torpaqlara qayıdacağıq!”*** arzusunun reallığa çevrildiyinin təsdiqi idi.

Heydər Əliyev yolu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da hərtərəfli inkişaf yoluna çıxarıb. Bir zamanlar düşmən təcavüzü ilə, iqtisadi çətinliklərlə üz-üzə qalan Naxçıvan bu gün iqtisadi artım templərinə görə ölkəmizin lider regionuna çevrilib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı fonunda yeniləşən şəhər və kəndlərimiz, müasir infrastruktur, ən əsası sabitlik və təhlükəsizlik Naxçıvanı Azərbaycanın ən gözəl, cazibədar diyarına çevirib. Bu gün artıq 90-cı illərdən fərqli olaraq muxtar respublikanın sərhədləri müasir hərbi silahlarla təchiz olunan güclü ordumuz tərəfindən qorunur, torpaqlarımız etibarlı müdafiə olunur, yeni istehsal və xidmət sahələri açılır, hərtərəfli inkişaf hər addımda hiss olunur. Nəticədə, yeni iş yerləri yaranır, məskunlaşma artır, muxtar respublikaya gələn turistlərin sayı çoxalır.

*Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. 1969-cu ilin 14 iyulundan yazılan bu tarix isə xalqımızın milli qurtuluş, inkişaf və tərəqqi salnaməsinə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!”***

**“Şərq qapısı”**

## Naxçıvanda Qurban bayramı qeyd edilib





Mərhəmətin və Tanrıya məhəbbətin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət edib. Xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən bu bayramda qurban kəsmək və paylamaq bayramın fəzilətlərindən biri kimi yüksək mənəvi dəyərə malikdir. Qurban bayramı insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır”.***

İyulun 9-da muxtar respublikada Qurban bayramı qeyd edilib, məscidlərdə bayram namazı qılınıb, bayram payları verilib.

Həmin gün Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da sağlamlıq imkanları məhdud şəxslərə, aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan ailələrə, şəhid ailələrinə və qazilərə, Naxçıvan Hərbi Hospitalına, muxtar respublikada təhsil alan yerli və əcnəbi tələbələrə, Psixi Xəstəliklər Dispanserində müalicə olunanlara, “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin kollektivlərinə, ümumilikdə, 4 mindən çox bayram payı verilib.

Ali təhsil müəssisələrində bayram paylarının verilməsi münasibətilə keçirilən tədbirlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Emin Məmmədov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov və “Naxçıvan” Universitetinin rektoru Nurlana Əliyeva çıxış edərək bayram münasibətilə kollektivləri təbrik edib, ali təhsil müəssisələrinin hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunduğunu bildiriblər. Qeyd olunub ki, Qurban bayramı münasibətilə muxtar respublikada təhsil alan yerli və əcnəbi tələbələrə bayram paylarının verilməsi göstərilən qayğının daha bir ifadəsidir.

Xarici tələbələr göstərilən diqqətə görə minnətdarlıq ediblər.

**“Şərq qapısı”**

## Paleolit dövrünə aid yeni tapıntı



*Naxçıvan Muxtar Respublikası ərazisində aparılan araşdırmalar zamanı Ordubad və Şərur rayonları ərazisindən Alt Paleolit dövrünə aid əmək alətlərinin aşkar olunması bu diyarda ilk insan məskənlərinin 2 milyon 500 min il bundan əvvəl yarandığını təsdiq edirdi. 2022-ci ilin arxeoloji axtarışları zamanı Naxçıvanda, Şahbuz rayonu ərazisində, Qanlıgöl ətrafında yerləşən Osmantəpə yaşayış yerindən Alt Paleolit dövrünə aid yeni əmək aləti aşkar olunmuşdur.*

Bəhs etdiyimiz arxeoloji tədqiqatların müəllifi, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdən aldığımız məlumata görə, Aşel dövrünə (təqribən, 500-300 min il bundan əvvəl) aid əl çapacağı obsidiandan hazırlanmış və hər iki üzdən qəlpələnərək işlənmişdir. Qeyd edək ki, dəniz səviyyəsindən 2400 metr yüksəklikdə yerləşən Osmantəpənin Neolit dövründən məskunlaşması artıq karbon analizlərlə təsdiq edilmişdir. Yaşayış yerindən aşkar olan mikrolitlərin Mezolit dövrünə aid olması ilə bağlı fikirlər söylənsə də, bəzi mütəxəssislər bir qədər bu fikrə şübhə ilə yanaşırdılar. Yeni tapılan əmək aləti yaşayış yerinin daha qədim dövrdən – Alt Paleolit dövründən məskunlaşdırıldığını təsdiq edir.

Qeyd edək ki, yaşayış yerində daşdan hazırlanmış digər əmək alətləri də aşkar olunmuşdur. Bu isə Osmantəpə yaşayış yerinin Daş dövrünə aid düşərgə olduğunu deməyə imkan verir.

Yeni tapıntılar Alt Paleolit dövründə insanların yalnız mağaralarda deyil, açıq düşərgələrdə də məskunlaşdığını təsdiq edir. Yaşayış yerinin araşdırılması yeni tapıntıların aşkar olunması ilə nəticələnə bilər.

**Xəbərlər şöbəsi**

## Ötən ay 174 nəfərə əmək pensiyası, 459 sığortaolunana müavinət təyin olunub

Muxtar respublikada əhalinin sosial müdafiə məsələləri daim diqqət mərkəzində saxlanılır. Əhalinin həssas qrupuna aid olan əmək pensiyaçılarının sosial rifah halının yüksəldilməsi, sığorta-pensiya sistemi sahəsində göstərilən xidmətlərin təkmilləşdirilməsi aparılan sosial siyasətin əsas istiqamətlərindəndir. Bu sahədə həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun qarşısına qoyulan müvafiq tapşırıqların yüksək səviyyədə icrası üçün geniş imkanlar açıb. Belə ki, fond tərəfindən əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq işlər görülüb, pensiya ödənilməsinə 15 milyon 417 min manat, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsinə isə 336 min manat vəsait xərclənib. Eyni zamanda qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımla da təmin edilib.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq 133-ü yaşa, 18-i sağlamlıq imkanlarının məhdudluğa, 23-ü isə ailə başçısını itirməyə görə olmaqla pensiya hüququ yaranan 174 nəfərə əmək pensiyası təyin edilib. Pensiya təyin olunanlardan 164-nə qanunvericiliyə əsasən ilk dəfə təyinat olub, 10 nəfərin isə pensiya növündə dəyişiklik edilib. Qanunvericiliyə uyğun olaraq 459 sığortaolunana məcburi dövlət sosial sığorta haqları hesabına müavinət təyin olunub. Bundan başqa, dövlət icbari şəxsi sığorta ödənişini almaq hüququ yaranan şəxslərə ödənişlər həyata keçirilib və qanunla müəyyən edilmiş məbləğdə vəsaitlərin həmin şəxslərin bank hesabına köçürülməsi təmin olunub. Sığortaedənlər tərəfindən dövlət icbari şəxsi sığortası üzrə 94 min 789 manat vəsait fondun xüsusi hesabına köçürülüb.

Ötən ay məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 11 milyon 456 min manat vəsait daxil olub ki, bu da nəzərdə tutulan məbləğdən 10,4 faiz çoxdur. Ümumilikdə, pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 72,7 faizi məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılıb. Hesabat dövründə 260 fiziki şəxs məcburi dövlət sosial sığorta ödəyicisi kimi uçota alınıb. Eyni zamanda fərdi uçot sistemi sahəsində də işlər davam etdirilib, ilk dəfə əmək fəaliyyətinə başlayan 235 sığortaolunana fərdi şəxsi hesab açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Ölkənin ilk təhsil televiziyası yeni inkişaf mərhələsində...

## *Bu inkişafın təməlində ümummilli liderin əbədiyaşarlığı və müdrik siyasəti dayanır*

***Hər bir xalqın tarixində elə günlər var ki, mahiyyət və dəyərinə görə xüsusi önəm daşıyır, özünün müstəsna dərəcədə böyük əhəmiyyətini zaman-zaman hifz edir. Azərbaycan tarixinin səhifələri də belə şərəfli və müqəddəs günlərlə zəngindir. Lakin elə günlər var ki, məna və mündəricə baxımından hüdudsuz möhtəşəmliyə malikdir. 14 iyul 1969-cu il kimi... Bu tarixi böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycançılığın, milli dövlətçiliyin mövcudiyyət günü kimi yaddaşlarda əbədiləşdirdi.***

1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da fəal, yaradıcı surətdə davam etdirildi. Bu quruculuq və inkişaf konsepsiyası ümummilli liderin Azərbaycana rəhbərliyinin, xüsusilə ikinci dövründə özünü tam doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşdü. Dahi öndər Naxçıvanı düçar olduğu bir çox bəladan, xüsusilə də informasiya və telekommunikasiya blokadasından xilas etdi. Görülən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublika əhalisi Azərbaycan televiziyasının proqramlarını izləmək imkanı əldə etdi, Naxçıvanda fəaliyyət göstərən televiziya və radionun yayım imkanları genişləndirildi. 2004-cü ilin 14 iyul tarixi isə muxtar respublikanın həyatında əhəmiyyətli və unudulmaz bir hadisə kimi yadda qaldı. Məhz dahi öndərin siyasi hakimiyyətə gəlişinin 35 illiyi münasibətilə yaradılan "Kanal 35" televiziyası fəaliyyətə başladı. ***"14 iyul tarixi Naxçıvan teleməkanında əlamətdar hadisədir. Çünki ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 35 illiyi Naxçıvan tamaşaçılarının yaddaşında "Kanal 35" müstəqil televiziya studiyasının fəaliyyətə başladığı gün kimi qalacaq. Bu gün elmi-publisistik proqramlar yayan bir televiziya açılır. Naxçıvan Dövlət Universiteti, Özəl Universitet, Müəllimlər İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, texnikumların ziyalı təbəqəsinin, burada oxuyan gənclərimizin belə bir elmi-publisistik televiziyaya ehtiyacı var idi."*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu dəyərli fikirlərini səsləndirdiyi həmin gündən – televiziyanın açılış tədbirindən 18 il ötür. Bir vaxtlar 15 gün 5 saatlıq yayımla fəaliyyətə başlayan ölkəmizin ilk təhsil televiziyası hazırda hər gün 8 saatlıq proqram buraxılışı ilə müstəqil kanalda yayım həyata keçirir.

Son illər muxtar respublikada təhsilin yeni dövrün tələblərinə paralel şəkildə inkişafı diqqət mərkəzində saxlanılır. Bu, bir faktdır ki, doğma diyarımızda həyata keçirilən quruculuq tədbirləri içərisində ən böyük payı təhsil müəssisələrinin yenilənməsi və yeni məktəb binalarının tikintisi tutur. Xatırladaq ki, son dövr ərzində 200-dən çox təhsil müəssisəsinin müasir standartlara uyğun tikilərək və ya yenidən qurularaq istifadəyə verilməsi, onların yeni avadanlıq, o cümlədən informasiya kommunikasiya texnologiyaları ilə təmin olunması, zamanın tələblərinə cavab verən, nüfuzlu təhsil metodlarının – STEAM, distant və innovativ təlimlərin tədrisi, bir sözlə, təhsilin muxtar respublikada yüksələn xətlə inkişafı ölkənin ilk maarifçilik və tədrisyönümlü müstəqil kanal üzərində yayımlanan televiziya və radiosunun yaradılmasını da zərurətə çevirdi. Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verildi. 2021-ci il yanvarın 1-dən etibarən "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu təhsillə bağlı televiziya və radio proqramları hazırlayan teleradio yayımçısı olaraq fəaliyyətini davam etdirməyə başladı. Bu, muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının növbəti bariz nümunəsi olmaqla yanaşı, təhsilin informasiyalaşdırılmasında da yeni bir mərhələnin başlanğıcı oldu.









Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin söylədiyi ***"Ümummilli liderimiz möhtərəm Heydər Əliyev Azərbaycanda rəhbər işlədiyi dövrlərdə gənclərin savadlanmasına fikir verir, bu sahədə ardıcıl tədbirlər həyata keçirirdi. Bu gün açılan televiziya da həmin müqəddəs məramа xidmət edəcəkdir"*** fikirləri bu gün "Kanal 35" televiziyasının əsas fəaliyyət istiqamətidir. Naxçıvanda ilk dəfə keçirilən "STEAM təhsil festivalı"nda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yaradıcı kollektivimizə verdiyi tapşırıqlardan, qarşımıza qoyduğu əsas tələblərdən biri də gənc nəslin milli ruhda tərbiyəsi, Vətənini, torpağını sevən, dövlətçiliyə sədaqətli, elm və biliklərə dərindən yiyələnən gəncliyin formalaşması istiqamətində proqram siyasətinin həyata keçirilməsidir. Bu gün "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylə çalışır. Muxtar respublikanın təhsil müəssisələri ilə qarşılıqlı fəaliyyət göstərərək təhsillə bağlı televiziya və radio proqramlarının yayımını həyata keçirir, gənclərin intellektual, fiziki və mənəvi inkişafında böyük rol oynayan verilişlər hazırlayır, tamaşaçı və dinləyicilərin asudə vaxtının səmərəli təşkili üçün rəngarəng təqdimatlar nümayiş etdirir. Hazırda redaksiyada hər bir təhsil pilləsinə uyğun verilişlər, innovativ təlim metodlarına uyğun teledərslər, tariximizi, mədəniyyətimizi əks etdirən, görkəmli şəxsiyyətlərlə bağlı maarifləndirici teleradio proqramları hazırlanaraq yayımlanır. Məlumat üçün bildirək ki, bəhs olunan dövrdə redaksiya tərəfindən 800-dən artıq tədrisyönümlü videomaterial hazırlanaraq efirə təqdim olunub.

Bu gün hər bir şagird müasir dövrün tələblərinə uyğun, hərtərəfli inkişaf etmək üçün radio və televiziyanın bütün imkanlarından istifadə edir. Televiziyada hazırlanan teledərslərin, açıq və innovativ, eləcə də peşəyönümlü tədris materiallarının vahid bir platformadan təqdim edilməsi təhsilalanlar üçün bu imkanları daha əlverişli və operativ əldə etmək şəraiti yaradır. Teleradionun bütün sosial şəbəkə platformalarındakı fəallığı, hazırlanan hər bir materialın həmin hesablarda operativ şəkildə paylaşılması şagird və müəllimlərlə yanaşı, eləcə də təhsil ictimaiyyətinin bu informasiyaları rahat əldə etmələrinə şərait yaradır.

Qlobal cəmiyyətdə baş verən bəzi hadisələri nəzərdən keçirdikdə bir daha məlum olur ki, zamanın tələbinə uyğun addımların atılması günümüzün əsas reallıqlarındandır. Dünyada hökm sürən pandemiya və özü ilə bərabər gətirdiyi məhdudiyyətlər onu göstərdi ki, bizim cəmiyyət bu prosesə əvvəlcədən hazır idi. Dövlətimizin innovativ tədris sisteminin tətbiqi sahəsində həyata keçirdiyi tədbirlər, məktəblərin müasir İKT ilə təminatı distant tədrisə keçid üçün əsaslı baza rolunu oynadı. Muxtar respublikada ölkənin ilk tədris və maarifçilik kanalının yaradılması da bu sahədə qurulan müasir infrastrukturun mühüm nəticələrindən biri kimi atılan vacib addımlardan biridir.

Bu gün artıq təhsil profilli telelayihələr, açıq və interaktiv dərslərin yayımı muxtar respublikada təhsil yenilikləri, həyata keçirilən təhsil islahatları və təhsil quruculuğu televiziyanın əsas yaradıcılıq istiqamətini təşkil edir. Televiziya efirində yayımlanan "Təhsildə bu gün", "Təhsilə dair", "Mütaliə vaxtı", "Məktəbdən səngərə", "Bir dəqiqədə elm", "Bir müəllim hekayəsi", "Uğur yolu", "İmtahana doğru", "Ailə və uşaq", "Sağlam gələcək" verilişləri muxtar respublikanın təhsil ictimaiyyətinin, şagird və tələbə kontingentinin marağını cəlb etməyi bacarıb, daim izlənilən verilişlər sırasında yer alıb. Redaksiyanın yaradıcı əməkdaşları və nümunəvi müəllimlər tərəfindən hazırlanan bu layihələr şagirdlərə tariximizin, mədəniyyətimizin aşılanmasında, ən əsası gənc nəslin vətənpərvərlik, eləcə də tarixi-mədəni irsimizə və milli dəyərlərimizə sədaqət ruhunda tərbiyəsində mühüm əhəmiyyətə malikdir.

Ölkədə ilk dəfə olaraq təhsil radiosu kimi fəaliyyət göstərən "Naxçıvanın səsi" də yeni layihələrlə dinləyicilərin diqqət və marağına səbəb olub. "Məktəb illəri", "Salam, Naxçıvan", "Nazilənin kitab rəfi", "Şənbə söhbətləri", "Həyatımı dəyişən üç kitab" radioverilişləri, əsasən, elmə, biliyə marağı olan dinləyicilərin dünyagörüşünün artırılmasında və məktəblilərin intellektual düşüncəsinin formalaşmasında böyük rol oynayır.

Muxtar respublikanın aparıcı media qurumlarından olan təhsil televiziyasının *www.kanal35.az* saytı da müasir inkişaf yolu keçib, aprel ayının sonlarından etibarən tam yenilənmiş və təkmilləşdirilmiş şəkildə fəaliyyət göstərir. Dizayn, məzmun, istifadəçi rahatlığı və texniki imkanları baxımından müasir standartlara tam cavab verən sayt vasitəsilə teleradio layihələri, muxtar respublikada təhsil sahəsində baş verən ən son hadisələr, bu sahədə əldə edilmiş uğurlar daha geniş tamaşaçı və dinləyici kütləsinə çatdırılır. Bu da televiziyanın və radionun informasiya resursu kimi imkanlarını artırmaqla ölkənin digər bölgələrində də təhsilalanların bilik və bacarıqlarının inkişafına öz töhfəsini verir. Göstərilən diqqət və qayğının davamı kimi redaksiyaya müasir montaj kompüterləri, kameralar, mikrofonlar və teleradio avadanlıqları alınıb, studiyalar yenidən qurulub. Yeni avadanlıqlar əməkdaşların yaradıcılıq imkanlarının genişləndirilməsi və fəaliyyətin gücləndirilməsinə öz töhfəsini verib. Televiziya və radio elə bir sahədir ki, daim yenilik və müasir yanaşma tələb edir. Bu baxımdan "Kanal 35" televiziyasının yenidən qurulan çəkiliş studiyası, "Naxçıvanın səsi" radiosunun isə efir studiyasının müasir dizaynda hazırlanması burada yeni veriliş və proqramların ərsəyə gəlməsinə, eləcə də teledərslərin vizual baxımdan daha keyfiyyətli hazırlanmasına imkanlar yaradır.

Bütün bunlar bir daha onu göstərir ki, Naxçıvanda həm təhsilin, həm də media işinin günün tələbləri səviyyəsində qurulması diqqət mərkəzindədir. Çünki hər iki sahə müstəqillik illərində böyük inkişaf yolu keçib. Bu inkişafın təməlində isə ulu öndər Heydər Əliyevin parlaq zəkası, siyasi xətti dayanır. Təhsil televiziyası və radiosu olaraq bu media qurumunun dahi şəxsiyyətin hakimiyyətə gəlişinin 35-ci ildönümündə yaradılması bu gün hər bir əməkdaş üçün böyük öhdəlik və məsuliyyət deməkdir. "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu kollektivi olaraq qarşımızda mühüm vəzifələr dayanır. Onlardan ən əhəmiyyətlisi isə yaradılan şəraitdən səmərəli istifadə edərək gələcəyimiz olan gənclərin intellektli, bilikli və dünyagörüşlü formalaşmasına töhfə verməkdir. Çünki televiziya və radio medianın aparıcı qollarından biri kimi mühüm missiyaya – maarifləndirmə funksiyasına malikdir, böyük kütləyə xitab edir, geniş auditoriyaya çatdırılır. Fürsətdən istifadə edib "Şərq qapısı" qəzeti vasitəsilə bu auditoriyanın əsas simalarından olan təcrübəli pedaqoqlarımızı, gənc müəllimlərimizi təhsil televiziyası və radiosu ilə yaxından əməkdaşlığa və redaksiyanın yaradıcı imkanlarından istifadə etməyə çağırırıq. Çünki güc birlikdədir. Gəlin muxtar respublika təhsilinin müasir simasını birlikdə tarixiləşdirək Naxçıvanın təhsil salnaməçisinə çevirək!

**Ramal MƏMİŞOV**
***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasının baş redaktoru***

# 10 gün ərzində 13 milyon kvadratmetrdən artıq ərazi dezinfeksiya edilib



*Muxtar respublikada iyulun 1-dən başlanılan genişmiqyaslı dezinfeksiya tədbirlərinin növbəti mərhələsi dünən yekunlaşıb. 10 gün davam edən dərmanlama işləri qrafik əsasında Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında əhali tərəfindən intensiv şəkildə istifadə olunan bütün sahələri əhatə edib. Ümumilikdə, 13 milyon kvadratmetrdən artıq ərazini əhatə edən avtomobil yolları və piyada səkiləri dezinfeksiya olunub.*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi və Dövlət Baytarlıq Xidmətinin birgə tədbirlər planına uyğun olaraq infeksion və mövsümi xəstəliklərə, viruslara qarşı bütün yaşayış məntəqələrində iyulun 1-dən 10-dək növbəti genişmiqyaslı dezinfeksiya işləri aparılıb.

Bu məqsədlə qrafik əsasında səhər saatlarından etibarən Fövqəladə Hallar Nazirliyinin 12 xüsusi təyinatlı avtomobili vasitəsilə aparılan profilaktik tədbirlər nəticəsində Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında, ümumilikdə, 13 milyon kvadratmetrdən artıq sahəni əhatə edən avtomobil yolları və piyada səkiləri dezinfeksiya edilib. Fövqəladə Hallar Nazirliyinin 90 nəfərə yaxın şəxsi heyəti, Gigiyena və Epidemiologiya Mərkəzinin dezinfeksiya qrupu və Dövlət Baytarlıq Xidmətinin dezinfeksiyaedici avtomobili və əməkdaşları tərəfindən isə bazarlar və böyük ticarət mərkəzləri, muzeylər, tarix-memarlıq abidələri, istirahət mərkəzləri, istehsal müəssisələri, xidmət sahələri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların, yaşayış binalarının daxili, ətrafı, daha çox istifadə olunan digər yerlər dezinfeksiya edilib.

Qeyd edək ki, muxtar respublikada sanitar-gigiyenik vəziyyətə ciddi nəzarət olunması, mövsümi xəstəliklərə qarşı tibbi maarifləndirmənin aparılması, bütün yaşayış məntəqələrində aparılan nümunəvi genişmiqyaslı dezinfeksiya işlərinin nəticəsidir ki, sanitar-epidemioloji vəziyyət sabitdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Maarifləndirici seminar təşkil olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası nəticəsində müvafiq kateqoriyadan olan uşaqların hərtərəfli inkişafı təmin olunur, onlara göstərilən sosial xidmətlərin keyfiyyəti və həcmi artırılır. Sağlamlıq imkanları məhdud uşaqlara xidmət göstərən müəssisələrin kadr təminatının təkmilləşdirilməsi, bu sahədə fəaliyyət göstərən mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədilə ardıcıl tədbirlər icra edilir.



Bu tədbirlərin davamı kimi iyul ayının 10-da Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəvəti ilə Bakı şəhərində yerləşən Qüsursuz Nitq Mərkəzinin direktoru, ölkə səviyyəsində tanınmış defektoloq-loqoped Esmira Qafarova Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində olub. Onun iştirakı ilə təşkil olunan seminarda uşaqlarda yaranan nitq qüsurları və onlara tətbiq olunan loqopedik müalicə üsulları, nitq problemlərinin yaranması səbəbləri və buna zəmin yaradan sosial faktorlar müzakirə olunub, suallar cavablandırılıb.

Qeyd edək ki, bu yaxınlarda Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Oyun terapiyası üzrə yeni bölmə də istifadəyə verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Heydər Əliyev siyasətinin işığında müasir NAXÇIVAN

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk.*





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV:** *Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır.*














## Naxçıvan Muxtar Respublikası üzrə 13 iyul 2022-ci il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 992 | 975 | 2823 | 29,0 |
| 2. | Şərur rayonu | 4038 | 3350 | 13603 | 40,6 |
| 3. | Babək rayonu | 11094 | 10854 | 34767 | 32,0 |
| 4. | Ordubad rayonu | 1607 | 1607 | 4663 | 29,0 |
| 5. | Culfa rayonu | 5711 | 5296 | 16097 | 30,4 |
| 6. | Kəngərli rayonu | 6056 | 4935 | 14820 | 30,0 |
| 7. | Şahbuz rayonu | 1527 | 1018 | 2875 | 28,2 |
| 8. | Sədərək rayonu | 2441 | 2441 | 8941 | 36,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **33466** | **30476** | **98589** | **32,3** |

## Güləşçilərimiz qitə birinciliyində iki medal qazanıb



Yunanıstanın Katerini şəhərində çimərlik güləşi üzrə Avropa çempionatı keçirilib.

Baş məşqçi Oyan Nəzəriani və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında qitə birinciliyində ölkəmizi 6 güləşçi təmsil edib. Onların həmisı fəxri kürsüyə qalxıb. Qitə birinciliyinə yollanan güləşçilərimiz arasında Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının idmançıları da olub.

Belə ki, 70 kiloqram çəki dərəcəsində mübarizə aparan Hüseyn Əliyev (U-20) yalnız final görüşündə azərbaycanlı Rübail İbrahimliyə məğlub olub və gümüş medal qazanıb.

Eyni zamanda Katerini şəhərində təşkil olunan U-17 Avropa çempionatına da yekun vurulub. Bu yaş qrupunda mübarizə aparan Naxçıvan güləş məktəbinin yetirməsi Vüsal Əliyev (70 kiloqram) bütün rəqiblərinə qalib gələrək Avropa çempionu olub.

Qeyd edək ki, hər iki yaş qrupunda Azərbaycan yığması komanda hesabında Avropa çempionu adını qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Rzayeva Səbinə Nuruş qızının adına olan Naxçıvan şəhəri, Çənlibel məhəlləsi, bina 14, mənzil 05/233a qeydiyyat nömrəli mənzilin qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 620